AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
Ticarət statistikası şöbəsi

# DAXİLİ TİCARƏT STATİSTİKASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**01.05.2013**



Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rafael@azstat.org, +994 12 538 76 95

## Mündəricat


1. Statistik prosesə və məhsullara giriş............................................... 3

2. Aktuallıq........................................................................................ 5

3. Dəqiqlik.......................................................................................... 7

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə.................... 7

5. Bərabər giriş və aydınlıq............................................................ 9

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik................................. 11

7. Çıxış keyfiyyət komponentləri arasında seçim.............................. 13

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi ..... 13

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük.......................... 14

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik.............................................. 14

11. Yekun........................................................................................ 15




Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə: rafael@azstat.org, +994 12 538 76 95

## 1. Statistik prosesə və məhsullara giriş

### *Müşahidənin təsviri*

Daxili ticarət statistikası sektoru vahid qaydalara uyğun olaraq İFNT üzrə əsas fəaliyyət növü "Avtomobil və motosikletlərin pərakəndə və topdan satışı, təmiri üzrə xidmətlər", "Avtomobil və motosikletlərin satışından başqa topdan satış", "Avtomobil və motosikletlərin satışından başqa pərakəndə satış" olan hüquqi və fiziki şəxslərin ticarət və xidmət subyektlərində ticarət və xidmətə dair iqtisadi göstəricilərin müşahidəsini aparır. Statistik məlumatların hesablanması zamanı iqtisadiyyatın digər sahələrində əlavə fəaliyyət növü kimi mövcud olan pərakəndə və topdan satış ticarət, avtomobil və motosikletlərin təmiri üzrə göstəricilər də nəzərə alınır.

Müşahidənin aparılması məqsədi ilə müşahidə formalarının, onların doldurulmasına, əlavə hesablamaların aparılmasına dair və digər metodoloji materialların hazırlanması və mütəmadi olaraq beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi statistik prosesin bir hissəsini təşkil edir. Bundan başqa, təqdim olunmuş məlumatların yoxlanılması, zəruri hallarda impyutasiya edilməsi, yekunlaşdırılması, təhlili, məlumatların nəşr olunaraq istifadəçilərə çatdırılması fəaliyyəti həyata keçirilir.

### *Müşahidə vahidləri*

Daxili ticarət sektoru üzrə rəsmi statistika hesabatları tətbiq edilməklə pərakəndə və topdan satış ticarəti, avtomobil və motosikletlərin təmiri üzrə fəaliyyət göstərən hüquqi şəxs statuslu iri və orta təşkilatlarda başdan-başa üsulla aylıq dövrilikdə, hüquqi şəxs statuslu kiçik müəssisələrdə, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin ticarət subyektlərində baş məcmu şamil edilməklə rüblük seçmə müşahidələr aparılır. Bundan başqa, ərzaq, qeyri-ərzaq və qarışıq mallar bazarları rəsmi statistika müşahidəsi forması əsasında rüblük dövrilikdə statistik seçmə müşahidəyə cəlb olunur.

Seçmə müşahidələr şöbə tərəfindən hazırlanmış Statistik vahidlərin Dövlət reyestrinə daxil edilmiş hüquqi və fiziki şəxslərin seçilməsi, seçmə əmsallarının hesablanması və seçmə məcmu üzrə yekunların baş məcmuya şamil edilmə qaydaları əsasında aparılır. Müşahidə vahidlərinin seçmə məcmusu ardıcıl olaraq uçot vahidlərinin fəaliyyət göstərdiyi ərazi bölgələri, İFNT-i üzrə iqtisadi fəaliyyət növlərinin G

seksiyasının 45, 46, 47-ci qrupları (3, 4 və ya 5 rəqəmli kod səviyyəsində), işçilərinin sayı üzrə qruplaşdırılmış siyahısından 10%-li təsadüfü seçmə əsasında yaradılır. Müşahidəyə cəlb olunmuş statistik vahidlərin siyahısı hər ilin əvvəlində vergi orqanlarının məlumatları əsasında dəqiqləşdirilir. Seçməyə düşmüş bütün statistik vahidlər müvafiq dövrilikdə müşahidəyə cəlb olunur.

***Əhatə***

Pərakəndə və topdansatış əmtəə dövriyyəsinin həcmi, pərakəndə və topdansatış subyektlərində əmtəə qalığının həcmi, həmçinin avtomobil və motosikletlərin təmiri üzrə xidmətlərin həcminə dair göstəricilərin müşahidəsi Məhsul Növləri Təsnifatı üzrə G seksiyasının 45, 46, 47-ci qrupları üzrə 8-rəqəmli kod səviyyəsində ticarət xidmətlərini əhatə edir. Pərakəndə ticarət üzrə 130, topdansatış ticarət üzrə 90, avtomobil və motosikletlərin təmiri üzrə 10-a yaxın ticarət və xidmət növü müşahidə ilə əhatə olunur.

***Əsas göstəricilər***

Müşahidə olunan əsas göstəricilər aşağıdakılardır:

-pərakəndə ticarət dövriyyəsinin həcmi;
-topdansatış ticarət dövriyyəsinin həcmi;
-pərakəndə ticarət subyektlərində əmtəə ehtiyatlarının həcmi;
-topdansatış ticarət subyektlərində əmtəə ehtiyatlarının həcmi;
-topdansatış ticarət fəaliyyəti üzrə mükafat müqabilində və müqavilə əsasında vasitəçilik fəaliyyəti üzrə əldə edilən gəlirin həcmi;
-pərakəndə ticarət subyektləri üzrə mağazaların sayı və sahəsi;
-topdansatış ticarət subyektləri üzrə anbarların sayı və tutumu;
-əmtəə bazarlarının sayı və onlarda ticarət yerlərinin sayı;
-avtomobil və motosikletlərin təmiri üzrə göstərilən xidmətlərin həcmi;
-pərakəndə ticarət dövriyyəsinin fiziki həcm indeksləri;
-topdansatış ticarət dövriyyəsinin fiziki həcm indeksləri.

***Sorğu vərəqəsi***

Statistik müşahidə Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş rəsmi statistika hesabatı və rəsmi statistika müşahidəsi formaları əsasında real-vaxt (onlayn)

rejimində həyata keçirilir:

- 1-ticarət №-li forma, "Ticarət fəaliyyəti haqqında", illik;
- 1-ticarət (fiziki şəxs) №-li forma, "Fiziki şəxslərin ticarət fəaliyyəti haqqında", rüblük;
- 1-bazar №-li forma, "Yarmarka və kənd təsərrüfatı məhsulları bazarları haqqında", rüblük;
- 2-bazar №-li forma, "Yarmarka və kənd təsərrüfatı məhsulları bazarlarında malların satışı haqqında", rüblük;
- 4-əmək (ticarət) №-li forma, "İşçilərin sayı, hərəkəti və əmək haqqına dair", aylıq;
- 1-əmək (ticarət) №-li forma, "Əmək üzrə", illik;
- 1-müəssisə (ticarət) №-li forma, "Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti və maliyyə nəticələri haqqında hesabat, rüblük;
- 1-müəssisə (ticarət) №-li forma, Müəssisənin (təşkilatın) istehsal fəaliyyəti, maliyyə nəticələri və əmlakı haqqında hesabat", illik;
- 1-İKT (ticarət) №-li forma, "Müəssisələrdə informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadəyə dair", illik;
- 2 -innovasiya (ticarət) №-li forma, "Müəssisənin innovasiya fəaliyyəti haqqında", illik;
- 1–istehsal (ticarət) №-li forma, "Malların istehsalı, satışı və xidmətlərin göstərilməsi haqqında", aylıq.

## 2.Aktuallıq

Daxili ticarət statistikasına dair göstəricilərin istehsal prosesi yerli və beynəlxalq istifadəçilərin tələbatına uyğun olaraq daima təkmilləşdirilir.

Beynəlxalq səviyyədə müqayisəliyin təmin edilməsi məqsədi ilə statistik müşahidələr Beynəlxalq standartlara uyğun səviyyədə təşkil edilmişdir. Göstəricilərin müşahidəsi,

hesablanması Birləşmiş Millətlər Təşkilatının "Pərakəndə və topdansatış ticarət statistikası üzrə beynəlxalq tövsiyələr, 2008-ci il" tövsiyələri (İnternational Recommendations for Distributive Trade Statistics 2008), Aİ-nin göstərişləri (Council Regulation (EC) № 1165/98 concerning short-term statistics, Eurostat manual on the Production of Structural Business Statistics), MDB Statistika Komitəsinin "Pərakəndə ticarət dövriyyəsinin statistik müşahidəsi və fiziki həcm indekslərinin hesablanmasına dair metodoloji tövsiyələr, 2012" və digər beynəlxalq tövsiyələrə, Milli Hesablar Sisteminin tələblərinə uyğun olaraq həyata keçirilir.

Pərakəndə və topdan satış ticarət dövriyyəsinin fiziki həcm indeksləri Beynəlxalq təcrübəyə əsaslanaraq İstehlak qiymətləri indeksləri tətbiq edilməklə Laspeyres düsturu əsasında hesablanır.

Statistik məhsulların məzmun yönlü təsviri aşağıdakı kimidir:

Pərakəndə ticarət dövriyyəsi (aylıq dövrilikdə) - təzə və ya istifadə olunmuş malların emal edilmədən, şəxsi istehlak və ya ev təsərrüfatında istifadə məqsədi ilə əhaliyə satışını əks etdirir. Pərakəndə ticarət dövriyyəsi nağd pulla və ya kredit kartları, bankların haqq-hesab çekləri ilə ödənilməklə, həmçinin haqqı əmanətçilərin hesablarından köçürülməklə əhaliyə satılmış əmtəələrin dəyərini ifadə edir və haqqın ödənilmə vaxtından asılı olmayaraq satılan əmtəənin tam satış dəyəri həcmində və əhaliyə satıldığı vaxt üzrə uçota alınır.

Topdansatış ticarət (aylıq dövrilikdə) - kənardan alınmış yeni və ya istifadə olunmuş malların pərakəndə ticarət, sənaye, kommersiya müəssisələrinə, institusional və ya peşəkar istifadəçilərə, digər topdansatış ticarətçilərinə, həmçinin malların alqı-satqısı zamanı bu kimi şəxslərin və şirkətlərin adından çıxış edən agent və ya vasitəçilərə emal edilmədən təkrar satışını ifadə edir.

Ticarət statistikası şöbəsi tərəfindən müşahidəsi aparılan elektron ticarəti (aylıq dövrilikdə) - pərakəndə və topdansatış ticarət fəaliyyəti üzrə informasiya sistemlərindən (internetdən) istifadə edilməklə malların alqı-satqısı üzrə yerinə yetirilən ticarət fəaliyyətini ifadə edir.

Pərakəndə və topdansatış ticarətində mal ehtiyatlarının həcmi (aylıq dövrilikdə) - tədavül sahəsində gündəlik satışı təmin edən malların satıldığı vaxta qədər həcmini ifadə edir. Mal ehtiyatlarının həcminə mağaza, çadır və köşklərdə, səyyar şəbəkələrdə, pərakəndə və topdansatış ticarət strukturlarının baza və anbarlarında müəyyən bir tarix üzrə mövcud olan malların həcmi daxil edilir.

Topdansatış ticarət müəssisələrinin müqavilə əsasında və mükafat müqabilində vasitəçilik fəaliyyəti üzrə əldə etdiyi gəlir (illik dövrilikdə) - əmtəələrin vasitəçilər vasitəsi ilə müqavilə qiymətləri ilə satışı zamanı əldə edilən mükafatın (gəlirin) məbləğini göstərir.

Mağazaların və köşklərin sayı (illik dövrilikdə) - bir binada bir neçə ticarət yeri olan, bir müdiriyyətlə idarə olunan mağaza bir mağaza kimi uçota alınır. Əgər bir mağaza bir neçə binada yerləşərsə, hətta bir müdiriyyətlə idarə olunarsa belə, hər bir bina ayrıca mağaza kimi uçota alınır. Alıcılar üçün ticarət zalı olmayan, lakin satış üçün ayrılmış xüsusi yerə (ümumi sahəsi 4 kv.metr və daha az olan) malik olan ticarət müəssisələri köşk hesab edilir

Mağazaların ticarət sahəsi (illik dövrilikdə) - malların satılması və alıcıya xidmət göstərilməsi üçün ayrılmış sahələrin cəmini ifadə edir.

## 3. Dəqiqlik

Statistik məlumatların dəqiqliyinin təmin edilməsi ilk növbədə ilkin məlumatların (giriş məlumatlarının) məntiqi yoxlanılması, digər hesabat göstəriciləri ilə müqayisə edilməsi, həmçinin çıxış məlumatlarının təhlili əsasında həyata keçirilir.

Bundan başqa, statistik məhsulların qiymətlərinin həqiqi dəyərlərə yaxınlıq dərəcəsi SPSS proqram paketi tətbiq edilməklə təyin edilir. Bu proqram vasitəsi ilə ilkin məlumatlar üzrə hesablanmış orta kəmiyyət və standart kənarlaşma, onların əsasında hesablanan variasiya əmsalının təhlil edilməsi yolu ilə həqiqi dəyərlərindən kənarlaşan məlumatlar aşkar edilir və kənarlaşmaların səbəbləri araşdırılır. Səhv tərtib edilmiş göstərici aşkarlanarsa, həmin məhsul təshih edilir.

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Vaxtlı-vaxtında olma aspekti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin internet səhifəsində yerləşdirilir. Təqvimə uyğun olaraq statistik göstəricilər yerli və beynəlxalq istifadəçilərə vaxtında təqdim edilir.

İlkin statistik məlumatlar Dövlət Statistika Komitəsinin rəsmi statistika hesabatı müşahidəsi formaları üzrə təsdiq edilmiş təqdim edilmə müddətinə uyğun olaraq uçot vahidləri tərəfindən real-vaxt (online) rejimində təqdim edilir. Təqdim edilmiş

statistik məlumatlar yerli statistika orqanları tərəfindən Komitənin "Yerli statistika orqanları üçün statistik işlər proqramı"nda nəzərdə tutulmuş işin son təqdim edilmə tarixinədək yoxlanılır. Təqdim edilmiş statistik məlumatlar və onlar əsasında hesablanmış yekunlar Baş Hesablama Mərkəzinin müvafiq şöbəsi tərəfindən "Statistik işlər proqramı"na uyğun olaraq son hazır olma tarixinədək təhlil edilərək yoxlanılır və nəşr edilir. Komitənin Daxili ticarət statistikası sektoru çıxış cədvəllərinin keyfiyyətinə və hesabat intizamına nəzarət etmək məqsədi ilə hesabat məlumatlarını mütəmadi və dərindən təhlil edir, yol verilmiş nöqsanların aradan qaldırılmasına dair BHM-in müvafiq şöbəsinə tapşırıqlar verir.

Komitənin Ticarət statistikası şöbəsi yoxlanılmış statistik məlumatların yerli və beynəlxalq istifadəçilərə vaxtında çatdırılmasını təmin edir.

### *V2. İlkin məlumatların alınması ilə ilk nəticələrin hazır olma vaxtı arasında laq (vaxt)*

İri və orta ticarət müəssisələri üzrə aylıq ilkin məlumatların alınma tarixi ilə nəticələrin hazır olma tarixi arasında vaxt intervalı (laq) 2-3 gün, kiçik müəssisələr üzrə rüblük ilkin məlumatların alınma tarixi ilə nəticələrin hazır olma tarixi arasında vaxt intervalı (laq) 10- günədəkdir.

### *V3. hesabat dövrünün sonu və son nəticələrin tarixi arasında aralıq vaxt*

V3 göstəricisi - hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayını əks etdirib, son nəticələrin vaxtlı-vaxtında olmasını ifadə edir.

*Cədvəl №1*

İri və orta ticarət müəssisələri üzrə

| Hesabat dövrü | 07.11.2012 | 07.12.2012 | 11.01.2013 |
|---|---|---|---|
| Nəşr tarixi | 14.11.2012 | 14.12.2012 | 14.01.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 7 gün | 7 gün | 3 gün |
| Aralıq vaxt (laq), iş günü | 4 gün | 5 gün | 1 gün |

İri və orta ticarət müəssisələri üzrə

| Hesabat dövrü | 07.11.2012 | 07.12.2012 | 11.01.2013 |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 14.11.2012 | 14.12.2012 | 14.01.2013 |
| Faktiki nəşr tarixi | 13.11.2012 | 11.12.2012 | 14.01.2013 |
| Aralıq vaxt(laq) | -1 | -3 | 0 |

## 5. Bərabər giriş və aydınlıq

Daxili ticarət sektoru üzrə aylıq, rüblük, illik məlumatlar hazır olduqdan sonra müxtəlif yayım vasitələri tətbiq edilməklə yerli və beynəlxalq istifadəçilərin tələblərinin ödənilməsinə yönəldilir.

Bu məqsədlə, press-relizlər, ekspress-məlumatlar, illik məlumatların əks olunduğu illik statistik məcmuə Komitənin veb-səhifəsində PDF formatında yerləşdirilir. Daha geniş göstəricilər sistemini əhatə edən illik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası (http://www.azstat.org/MESearch/search?departament=8&lang=az) bölməsində yerləşdirilir. Həmçinin hesabat formalarına və göstəricilərə dair metaməlumatlar, digər metodoloji izahlar veb səhifəsinin (http://www.stat.gov.az/menu/7/) bölməsində yerləşdirilir.

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az<br>http://www.stat.gov.az/source/trade/ |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Azərbaycanda ticarət | http://www.stat.gov.az/source/trade/ |
| 4 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=8&lang=az |
| 5 | Dövlət Statistika Komitəsinə göndərilən sorğulara cavablar | - |
| 6 | “Azərbaycan rəqəmlərdə” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 7 | “Azərbaycanın statistik göstəriciləri” | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| 8 | Azərbaycanın regionları | http://www.stat.gov.az/source/regions/ |
| 9 | Azərbaycan-faktlar və rəqəmlər | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |

***BA1. Kağız məruzələr üzrə abunələrin və sifarişlərin sayı***

Daxili ticarətə dair göstəriciləri əhatə edən son 5 illik məlumatları əks etdirən

“Azərbaycanda ticarət” adlı illik statistik məcmuə kağız formasında istifadəçilərə təqdim olunur. 2011-ci il üzrə məcmuə 150 nüsxə çap olunmuşdur ki, onlardan:

- 40 nüsxə müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
- 76 nüsxə rayon (şəhər) statistika idarələrinə;
- 27 nüsxə Komitənin digər şöbələrinə təqdim edilmiş;
- 7 nüsxə ehtiyat məqsədi ilə şöbədə saxlanılmışdır.

### *BA2. Onlayn məlumat bazasına girişlərin sayı*

Komitənin veb-saytının http://www.stat.gov.az/link_click_counter/ -bölməsində ticarət statistikası məhsulundan istifadəçilərin sayı və %-i daima əks etdirilir. 30 aprel 2013-cü il tarixinə ticarət statistikası məhsulunun istifadəçilərinin sayı 768 nəfər və ya ümumi istifadəçilərin 6,0% -ni təşkil etmişdir.

### *BA3. Metaməlumatların dolğunluq səviyyəsi*

Metaməlumatların dolğunluq səviyyəsi - Metaməlumatlarla təmin olunmuş göstəricilərin metaməlumatlarının mövcud olması üçün təyin olunmuş göstəricilərin ümumi sayına nisbətini ifadə edir.

| | **01.05.2013-cü il tarixinə** |
|---|---|
| Metaməlumatlarla təmin olunmuş göstəricilərin sayı, vahid | 34 |
| Metaməlumatlarının olması üçün təyin olunmuş göstəricilərin sayı | 34 |
| Metaməlumatların dolğunluq səviyyəsi | 100% |

Komitənin veb-saytının Metaməlumatlar bölməsində Daxili ticarətə dair bütün əsas statistik göstəricilərə dair metaməlumatlar yerləşdirilmişdir. Göstəricilərə dair məlumat sistemində hər bir göstəricinin kodu, adı, izahı, tətbiq sahəsi, əhatə dairəsi, mənbəyi, toplanma metodu, tətbiq edildiyi təsnifat, yayım forması, əks olunduğu nəşrlər, dövriliyi, ölçü vahidi, beynəlxalq konsepsiyası, məlumat bazası ilə elektron əlaqəsi barədə məlumatlar öz əksini tapmışdır.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Daxili ticarət statistikası üzrə bütün statistik məhsulların əlaqələndirilməsi, makro və mikro səviyyədə əsaslı şəkildə birləşdirilməsi üçün onların istehsal prosesində eyni təsnifatlar, təriflər, hesablama metodları tətbiq edilir və hesabat dövrünün eyniliyi təmin edilir.

Hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin ticarət subyektləri, həmçinin əmtəə bazarları üzrə əldə edilən bütün ilkin statistik məlumatların istehsal prosesi çərçivəsində İqtisadi Fəaliyyət növlərinin Təsnifatı, Məhsul Növlərinin Təsnifatı, Mülkiyyət Növlərinin Təsnifatı və İnzibati-ərazi bölgüsü Təsnifatının tətbiq edilməsi bu göstəricilər üzrə iqtisadi fəaliyyət növləri, əmtəə növləri, ərazi bölgələri, mülkiyyət növləri üzrə yekunların əldə edilə bilməsinə zəmin yaradır.

Milli Hesablar Sistemi ilə uyğunluğun, həmçinin Beynəlxalq səviyyədə müqayisəliyin təmin edilməsi məqsədilə Daxili ticarət statistikası üzrə göstəricilərin müşahidəsi Beynəlxalq metodologiyalar əsasında təşkil edilmişdir.

### *UM 1. Verilmiş dinamika sıralarının uzunluğu*

Daxili ticarət statistikası üzrə əsas məhsulların həcminin zaman üzrə dəyişilməsini xarakterizə edən dinamika sıralarının uzunluğu- başlanğıc dövrü ilə bitmə dövrü arasında olan dövr aşağıdakı kimidir:

***Cədvəl №2***

| Dinamika sıralarının | | | |
|---|---|---|---|
| **adı** | **dövriliyi** | **başlanğıc dövrü** | **uzunluğu** |
| Pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi | illik<br>aylıq | 1950-ci il<br>2000-ci il | 63 il<br>13 il |
| Pərakəndə ticarət dövriyyəsinin ümumi həcminin əvvəlki ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksi | illik<br>aylıq | 1951-ci il<br>2001-ci il | 62 il<br>12 il |
| Ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi | illik<br>aylıq | 1950-ci il<br>2000-ci il | 63 il<br>13 il |
| Ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin ümumi həcminin əvvəlki ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksi | illik<br>aylıq | 1951-ci il<br>2001-ci il | 62 il<br>12 il |
| Qeyri-ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi | illik<br>aylıq | 1950-ci il<br>2000-ci il | 63 il<br>13 il |

| Dinamika sıralarının | | | |
|---|---|---|---|
| **adı** | **dövriliyi** | **başlanğıc dövrü** | **uzunluğu** |
| Qeyri-ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin ümumi həcminin əvvəlki ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksi | illik<br>aylıq | 1951-ci il<br>2001-ci il | 62 il<br>12 il |
| Hər bir nəfərə düşən pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi | illik | 1950-ci il | 63 il |
| Hər bir nəfərə düşən ərzaq malları üzrə pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi | illik | 1950-ci il | 63 il |
| Hər bir nəfərə düşən qeyri-ərzaq malları üzrə pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi | illik | 1950-ci il | 63 il |
| Hər bir nəfərə düşən ərazi bölgələri üzrə pərakəndə ticarət dövriyyəsinin ümumi həcmi | illik | 1990-cı il | 23 il |
| Pərakəndə ticarət dövriyyəsinin ərazi bölgələri üzrə həcmi | illik<br>rüblük | 1990-cı il<br>2005-ci il | 23 il<br>8 il |
| Pərakəndə ticarət dövriyyəsinin ərazi bölgələri üzrə əvvəlki ilin müvafiq dövrünə nisbətən fiziki həcm indeksləri | illik<br>rüblük | 1991-ci il<br>2006-cı il | 22 il<br>7 il |
| Pərakəndə ticarət dövriyyəsinin dövlət və qeyri-dövlət mülkiyyət forması üzrə həcmi | illik<br>aylıq | 1985-ci il<br>2000-ci il | 28 il<br>13 il |
| Pərakəndə ticarət dövriyyəsinin dövlət və qeyri-dövlət mülkiyyət forması üzrə əvvəlki ilə nisbətən fiziki həcm indeksi | illik<br>aylıq | 1986-cı il<br>2001-ci il | 27 il<br>12 il |
| Pərakəndə ticarət dövriyyəsinin hüquqi və fiziki şəxslər üzrə həcmi | illik<br>aylıq | 1985-ci il<br>2000-ci il | 28 il<br>13 il |
| Pərakəndə ticarət dövriyyəsinin hüquqi və fiziki şəxslər üzrə əvvəlki ilə nisbətən fiziki həcm indeksi | illik<br>aylıq | 1986-cı il<br>2001-ci il | 27 il<br>12 il |
| Pərakəndə ticarət dövriyyəsinin əmtəə qrupları üzrə həcmi | illik | 1990-cı il | 23 il |
| Pərakəndə ticarət dövriyyəsinin əmtəə qrupları üzrə əvvəlki ilə nisbətən fiziki həcm indeksi | illik | 1991-ci il | 22 il |
| Pərakəndə ticarətdə mal ehtiyatlarının və mal təminatının ümumi həcmi | illik<br>aylıq | 1990-cı il<br>2000-ci il | 23 il<br>13 il |
| Pərakəndə ticarətdə mal ehtiyatlarının və mal təminatının ərazi bölgələri üzrə həcmi | illik | 2005-ci il | 8 il |
| Pərakəndə ticarətdə mal ehtiyatlarının və mal təminatının mal qrupları üzrə həcmi | illik | 2005-ci il | 8 il |
| Topdansatış ticarət dövriyyəsinin ümumi həcmi | illik | 1990-cı il | 23 il |
| Topdansatış ticarət dövriyyəsinin ərazi bölgələri üzrə həcmi | illik | 2005-ci il | 8 il |

*UM 2. Göstəricinin müxtəlif aspektlər üzrə uyğunluğunun təhlili*

Əlaqəli məlumatlar arasında uyğunsuzluqların aşkar edilməsi onların qarşılıqlı müqayisəsi əsasında həyata keçirilir. Bu məqsədlə mikro (əmtəə növləri üzrə, natura ifadəsində) səviyyədə malların ehtiyatı, istehsalı, idxal və ixracı əsasında hesablanmış balans göstərici müvafiq əmtəə üzrə pərakəndə satış göstəricisi ilə müqayisə edilir.

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Daxili ticarət statistikası məlumatlarının işlənməsi zamanı bütün keyfiyyət komponentlərinin paralel şəkildə yaxşılaşdırılması üçün bütün mümkün imkanlardan istifadə olunur. Hər hansı bir komponentin keyfiyyətinin yaxşılaşdırılmasının digərinin keyfiyyətinə mənfi təsiri imkan daxilində minimuma endirilir və tez bir zaman çərçivəsində aradan qaldırılır. Belə hallarda hər bir statistik məhsul üzrə fərdi yanaşma tətbiq olunur və məhsulun keyfiyyəti üçün vacib olan aktuallıq, dəqiqlik, vaxtlı-vaxtında olma, uyğunluq və müqayisəlilik komponentlərinin zəruriliyi üzrə seçim edilir.

Məsələn, Beynəlxalq metodologiyaya uyğun olaraq 2011-ci ildən pərakəndə əmtəə dövriyyəsinin həcminə iaşə dövriyyəsi daxil edilmir və bu səbəbdən iaşə dövriyyəsinin daxil edildiyi pərakəndə əmtəə dövriyyəsinin həcminin və fiziki həcm indekslərinin başlanğıc dövrü 1950-ci ildən (63 il) olan dinamika sıraları mümkün qədər qısa vaxt müddətində yenidən hesablanaraq istifadəçilərə təqdim edildi.

Bu halda istifadəçilərin tələbatlarının ödənilməsi üçün aktuallıqda yaxşılaşdırmalar müəyyən vaxt ərzində müqayisəliyin azalmasına səbəb olsa da, bu çatışmazlıq tez bir zamanda aradan qaldırıldı. Yəni, müəyyən vaxt ərzində aktuallıq komponenti ilə müqayisəlilik komponenti arasında seçimdə aktuallıq komponentinə üstünlük verildi və minimum vaxt ərzində müqayisəlilik komponentinin keyfiyyəti bərpa edildi.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Ticarət Statistikası şöbəsi fəaliyyətini həm yerli, həm də beynəlxalq təşkilat və qurumlarla sıx əməkdaşlıq çərçivəsində həyata keçirir, beynəlxalq və milli səviyyədə informasiyaya olan tələb və təklif göstəricilər sistemini formalaşdırır.

İşi istifadəçilərin tələbatlarının ödənilməsi istiqamətində qurulmuş Daxili ticarət sektorunda istifadəçilərlə hər il mütəmadi olaraq görüşlər keçirilir. Görüşlərdə istifadəçilərin tələbatlarının öyrənilməsi məqsədi ilə müzakirələr aparılır, məlumatların əldə edilməsinin, başa düşülməsinin asanlığının təmin edilməsi məqsədi

ilə göstəricilərin hesablanmasında tətbiq edilən beynəlxalq metodologiyalar, təsnifatlar və digər standartlar haqqında, göstəricilərin yayımlanma vasitələri haqqında məlumatlar verilir.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Daxili ticarət sektoru öz işini Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Normalar məcəlləsinin 12-ci və 13-cü, resursların səmərəli istifadə olunması, respondentlərin üzərinə düşən yükün istifadəçilərin tələbatları ilə proporsionallıq təşkil etməsi prinsiplərinə uyğun olaraq qurmuşdur.

Respondentlərə düşən yükün azaldılması məqsədi ilə rəsmi statistika hesabatı və müşahidəsi formalarının göstəriciləri mütəmadi olaraq təkmilləşdirilir, tələbata uyğun olmayan göstəricilər ləğv olunaraq daha aktual göstəricilərlə əvəz edilir.

İqtisadi səmərəliliyin artırılması və respondentlərə düşən yükün azaldılması məqsədi ilə, gələcəkdə inzibati mənbələrdən geniş istifadə olunması planlaşdırılır. Həmçinin, statistik proseslərin avtomatlaşdırılması, yəni məlumatların toplanması, işlənməsi və yayılması sahəsində informasiya və kommunikasiya texnologiyalarının potensialından geniş istifadə olunur.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir.

Daxili ticarət sektoru bütün istifadəçilərlə eyni səviyyədə davranaraq, qanunvericiliyə uyğun olaraq statistik məlumatları məxfilik, şəffaflıq və təhlükəsizlik prinsipləri əsasında istehsal edir və yayır.

Statistik məqsədlər üçün yığılan ilkin məlumatlar, məhkəmə qərarları əsasında verilmiş məlumatlar istisna olmaqla, başqa məqsədlər üçün istifadə edilmir.

Əgər yayımlanan statistik məlumatlar fərdi statistik məlumatların açılmasına gətirib çıxarırsa, qanunvericiliyə uyğun olaraq istifadəçilərə belə məlumatlar təqdim edilmir. Ümumiləşdirilmiş statistik məlumatlar yalnız o şərtlə yayımlanır ki, bu məlumatlarda ən azı 3 vahidin məlumatı öz əksini tapmış olsun, hər bir vahidin payı isə yekun

məlumatın 85%-dən çox olmasın.

## 11. Yekun

Daxili ticarət statistikası məhsullarına olan tələbatın müəyyənləşdirilməsi, layihələndirmə, istehsal sisteminin yaradılması, məlumatların toplanması, işlənməsi, təhlili, yayılması, arxivləşdirmə və qiymətləndirmə proseslərinin nizamlı şəkildə aparılması və nəticə etibarı ilə məlumatların və prosesin keyfiyyətinin yaxşılaşdırılması - rəsmi statistikanın istehsalı üçün tələb olunan proseslərin müəyyən edilməsi və izahı üçün çevik vasitə kimi qəbul edilən Statistik biznes-prosesin ümumi modeli (SBPÜM) əsasında həyata keçirilir.